Azərbaycan Respublikası Energetika Nazirliyinin
"3" oktyabr 2022-ci il tarixli
"F-99" nömrəli Əmri ilə təsdiq edilmişdir.

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30.12.2019-cu il tarixli 520 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının texniki istismar Qaydası"na, 11.02.2020-ci il tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası"na uyğun olaraq Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra – **Agentlik**) Nizamnaməsi rəhbər tutulmaqla hazırlanmış və elektrotexniki heyətin, eləcə də elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanması ilə bağlı Agentliyin filiallarında (bundan sonra – **filial**) biliyin yoxlanılması komissiyasının təşkil olunması, peşə biliklərinin yoxlanılması üçün müraciətin qəbulu və qeydiyyata alınması, peşə biliklərinin yoxlanılması, nəticələrinin rəsmiləşdirilməsi və hesabatlılığa dair Agentlikdaxili münasibətləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.2.1. **elektrik təsərrüfatına cavabdeh şəxs** – inzibati-texniki heyətdən təyin olunmuş, üzərinə elektrik qurğularına təhükəsiz xidmətin təşkili vəzifəsi qoyulmuş şəxs;

1.2.2. **elektrotexniki heyət** – elektrik qurğularına texniki xidməti, elektrik qurğularında əməliyyat çevirmələrini, montajı, sazlamanı, ölçmələri və diaqnozu yerinə yetirən, elektrik təhlükəsizliyi üzrə II və daha yüksək qrupa malik təşkilat heyəti;

1.2.3. **əməliyyat heyəti** – müəssisənin, onun struktur bölməsinin elektrik qurğularının əməliyyat idarəedilməsini, həmçinin, elektrik qurğularına əməliyyat xidmətini (baxışı, cari istismar qaydasında işlərin aparılmasını, əməliyyat çevirmələrini), iş yerinin hazırlanmasını, işçilərə buraxılış verən və nəzarəti həyata keçirən heyət;

1.2.4. **ərizə** – biliyin yoxlanılması üçün qurumlar tərəfindən təqdim edilən yazılı müraciət və ona əlavə edilən sənədlərin məcmusu;

1.2.5. **Komissiya** – bu Qaydalara uyğun olaraq filialda yaradılan biliyin yoxlanılması üzrə işçi qrup;

1.2.6. **qeydiyyatçı** – filial rəhbəri tərəfindən müəyyən edilən və ərizələrin ilkin yoxlanmasını və qeydiyyatını həyata keçirən filial əməkdaşı;

1.2.7. **qurum** – müəssisə və təşkilatlar, həmçinin fiziki şəxslər;

1.2.8. **texniki xidmət** – təyinatı üzrə istifadə olunduqda, saxlanıldıqda və daşındıqda məmulatın iş qabiliyyətini və sazlığını saxlamaq üçün kompleks əməliyyatlar və ya əməliyyat.

1.3. Bu Qaydaların məqsədləri üçün aşağıdakı ixtisar sözlərdən istifadə olunur:

1.3.1. **NK** – Azərbaycan Respublikasının Nazirlər Kabineti;

1.3.2. **AİH** – Agentliyin İdarə Heyəti;

1.3.3. **TMD** – Agentliyin Enerji tənzimləmə və monitorinq departamenti;

1.3.4. **EEİQ** – NK-nın 02.02.2005-ci il tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları";

1.3.5. **QQ** – NK-nın 11.02.2020-ci il tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası";

1.3.6. **TİQ** – NK-nın 30.12.2019-cu il tarixli 520 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının texniki istismar Qaydası";

1.3.7. **TTQ** – NK-nın 11.02.2020-ci il tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydası".

1.4. Elektrotexniki heyət və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanmasında məqsəd elektrik qurğularının etibarlı, təhlükəsiz və səmərəli istismarını təmin etmək, onları işlək və yararlı vəziyyətdə saxlamaqdır.

1.5. Elektrik qurğularına texniki xidmət və onların istismarını həyata keçirən, bu qurğularda quraşdırma, sazlama, təmir, sınaq və ölçmə işlərini görən elektrotexniki heyət və elektrik təsərrüfatlarına cavabdeh şəxslər TTQ və TİQ ilə müəyyən edilmiş qaydada peşə biliklərinin yoxlanılmasından keçməli və elektrik təhlükəsizliyi üzrə müvafiq qrupa malik olmalıdırlar.

1.6. Yoxlama bilavasitə fəaliyyətdə olan elektrik qurğularına xidmət üzrə işləri təşkil edən və aparan və ya onlarda sazlama, elektrik-quraşdırma, təmir işləri və ya profilaktika sınaqları aparan elektrotexniki heyət üçün, həmçinin naryadlar, sərəncamlar vermə, əməliyyat və operativ danışıqları aparmaq səlahiyyətinə malik heyət üçün 1 (bir) ildə 1 (bir) dəfə, bu qrupa aidiyyəti olmayan inzibati-texniki heyət üçün, həmçinin elektrik qurğularının təftişinə buraxılan əməyin mühafizəsi üzrə mütəxəssislər üçün – 3 (üç) ildə 1 (bir) dəfə keçirilir.

1.7. Bu Qaydalarla müəyyən edilən sənədləşmə Agentlikdə tətbiq olunan Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə həyata keçirilir.

## 2. Komissiyanın təşkil olunması

2.1. AİH sədrinin əmri ilə Agentliyin filiallarında tərkibi 5 (beş) nəfərdən az olmayan Komissiya yaradılır. Komissiyanın sədri və üzvləri Agentlikdə yaradılmış Mərkəzi Komissiyada biliyin yoxlanılmasından keçməli və elektrik təhlükəsizliyi üzrə müvafiq qrup almalıdırlar.

2.2. Komissiya aşağıdakıları həyata keçirir:

2.2.1. elektrik təsərrüfatında çalışan elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması məqsədi ilə qurumlarda yaradılmış yerli komissiyanın üzvlərinin biliklərinin yoxlanmasını;

2.2.2. sayı biliyin yoxlanılması üzrə yerli komissiya yaratmağa imkan verməyən qurumların elektrotexniki heyətinin və elektrik təsərrüfatına cavabdeh şəxslərinin biliyinin yoxlanılmasını.

2.3. Biliyin yoxlanılmasında Komissiyanın ən azı 3 (üç) üzvü iştirak etdikdə (yetərsay), Komissiya səlahiyyətlidir.

## 3. Peşə biliklərinin yoxlanılması üçün müraciətin qəbulu və qeydiyyata alınması

3.1. Qurumlardan biliklərinin yoxlanılması barədə ərizə qəbul olunarkən qeydiyyatçı həmin ərizənin məzmunu və formasının qanunvericiliyə uyğun olduğunu və ərizəyə aşağıdakıların qoşma şəklində əlavə edildiyini yoxlamalıdır:

3.1.1. qurumlar tərəfindən peşə biliklərinin yoxlanılması məqsədi ilə yerli komissiyanın təşkil olunması barədə əmrin (qərarın, sərəncamın) surəti;

3.1.2. biliyi yoxlanılacaq şəxsin (şəxslərin) vəzifəsi, iş stajı, müvafiq vəzifə (peşə) öhdəlikləri üzrə istehsalat fəaliyyətinin xarakteri və olduğu halda elektrik təhlükəsizliyi üzrə qrupu barədə məlumatlar.

3.2. Qeydiyyatçı bu Qaydaların 3.1-ci bəndini icra etdikdən sonra ərizəni (ona əlavə edilmiş sənədlərlə birlikdə) qeydiyyata alır və həmin gün filial rəhbərinə təqdim edir.

3.3. Filial rəhbəri ərizəni və ona əlavə edilmiş sənədləri qəbul etdikdən 1 (bir) iş günü müddətində Komissiyanın sədrinə yönəldir.

## 4. Peşə biliklərinin yoxlanılması və nəticələrinin rəsmiləşdirilməsi

4.1. Komissiyanın sədri ərizə ilə tanış olduqdan sonra 2 (iki) iş günü müddətində peşə biliyinin yoxlanılmasının vaxtını və yerini təyin edir və bu barədə filial rəhbərinə xidməti məktubla, müraciət edən şəxsə isə məktubla məlumat verir.

4.2. Filial rəhbəri tərəfindən Komissiyanın işə başlaması barədə tapşırıq verildikdən sonra ərizədə qeyd edilən şəxsin (şəxslərin) peşə biliyinin yoxlanılması həyata keçirilir.

4.3. Biliklərin yoxlanılmasına cəlb edilmiş şəxslərin peşə biliyinin yoxlanılması fərdi olaraq aparılır.

4.4. Elektrotexniki heyət və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin vəzifə və ya ixtisasa tətbiq olunan tələblər çərçivəsində, texniki normativ aktlar, o cümlədən EEİQ, TİQ, TTQ, QQ, qurğu üzrə, elektrik qurğularının texniki istismarı üzrə, avadanlıq və şəbəkələr, həmçinin işlərin təhlükəsiz yerinə yetirilmə üsulları və elektrik mühafizə vasitələrinin tətbiqi, qayda və istehsalat təlimatları üzrə peşə bilikləri yoxlanılır.

4.5. Peşə biliyinin səviyyəsi onun elektrik təhlükəsizliyi üzrə qrupuna, EEİQ, QQ, TİQ, TTQ və istehsalat təlimatlarının tələblərinə uyğun olmalıdır.

4.6. Biliyin yoxlanılmasının nəticələrinə görə şəxsin QQ, TİQ, EEİQ və istehsalat təlimatları üzrə bilik səviyyəsi qiymətləndirilir (2-dən 5-dək), TTQ üzrə isə bilik səviyyəsinə uyğun olaraq elektrik təhlükəsizliyi qrupu (II-dən V-dək) təyin olunur.

4.7. Biliyin yoxlanılmasının nəticələri barədə bu Qaydaların 1 nömrəli Əlavəsinə uyğun olaraq tərtib edilmiş "Elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılmasına dair Qeydiyyat Jurnalı"nda (bundan sonra - **Jurnal**) qeydlər aparılır, Komissiya üzvləri və biliyi yoxlanılan şəxs (şəxslər) tərəfindən imzalanır. Bir neçə şəxsin peşə biliklərinin yoxlanılması 1 (bir) gündə keçirildikdə və Komissiyanın tərkibi dəyişmədikdə, Komissiyanın üzvləri biliklərin yoxlanması başa çatdıqdan sonra Jurnalı 1 (bir) dəfə imzalayır. Bu halda Jurnalda bilik yoxlamasından keçən şəxslərin ümumi sayı göstərilir.

4.8. Jurnal elektron qaydada tərtib olunanadək kağız daşıyıcıda aparıldıqda Komissiyada saxlanılır, vərəqləri aşağı sağ küncdən nömrələnir, qaytanlanır, son səhifədə vərəqlərin sayı göstərilməklə filialın rəhbəri tərəfindən imzalanır, həmin səhifəyə filialın möhürü vurulur, qeydiyyat məlumatlarına düzəlişlərin edilməsi və ya sözlərin qısaldılması qadağandır, yalnız ilkin qeydiyyat məlumatlarında texniki qüsurlara yol verildikdə qeydlər yazılmasına yol verilir.

4.9. Jurnal ilk texniki imkanlar yarandığı gündən elektron qaydada tərtib olunduqda Agentliyin rəsmi saytında açıqlanır, qeydiyyat məlumatlarına dəyişiklik edilməsi mümkün olmayan, lakin qeydlər yazıla bilən formatda saxlanılır. Jurnalda qeydiyyat məlumatları sütunların mövzusuna uyğun olaraq, oxunaqlı şəkildə daxil edilməlidir.

4.10. Komissiya yoxlamada bilikləri qeyri-məqbul sayılmış şəxslərə yoxlamadan sonra 1 (bir) aydan gec olmayan müddətdə təkrar yoxlama təyin edir.

4.11. Filial tərəfindən biliyin yoxlanılmasının nəticələri barədə Jurnaldan çıxarış həmin gün biliyi yoxlanılana təqdim edilir və göndərilən (xaric olan) sənəd blankında bu Qaydaların 2 nömrəli Əlavəsinə uyğun olaraq çap olunaraq elektron qaydada və ya məktubla quruma göndərilir.

4.12. Biliklərinin yoxlanılması üçün təkrar daxil olmuş ərizəyə bu Qaydalara uyğun olaraq yenidən baxılır.

## 5. Hesabatlılıq

5.1. Biliyin yoxlanılması keçirildikdən sonra sənədlərin surəti filialda saxlanılır.

5.2. Filiallar tərəfindən ay ərzində biliyin yoxlanılması barədə hər növbəti ayın 2 (iki) – dək TMD-yə bu Qaydaların 3 nömrəli Əlavəsinə uyğun olaraq aylıq hesabat təqdim edilir.

“Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması Qaydaları”na
1 nömrəli Əlavə

_______________________________ elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılmasına dair

**QEYDİYYAT JURNALI**

| Qeydiyyat № | Adı, soyadı, atasının adı | İş yeri, ünvanı, vəzifəsi və hazırkı vəzifədə işlədiyi müddət | Əvvəlki yoxlama tarixi | Yoxlamanın səbəbi | Cari yoxlama tarixi | Yoxlamanın nəticəsi barədə Komissiyanın rəyi və qiyməti | Təhlükəsizlik texnikası üzrə qrupu | Növbəti yoxlamanın tarixi | Yoxlanılan şəxsin imzası |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

Komissiyanın sədri: _______________________

Komissiyanın üzvləri: _______________________

_______________________

_______________________

_______________________

**"Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması Qaydaları"na 2 nömrəli Əlavə**

**Elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılmasına dair Qeydiyyat Jurnalından ÇIXARIŞ**

**Biliyi yoxlanılan şəxs barədə məlumatlar (Qurumun adı, hüquqi ünvanı, biliyi yoxlanılan şəxsin soyadı, adı, atasının adı və vəzifəsi):**

**Hazırkı vəzifədə işlədiyi müddət:**

**Əvvəlki yoxlamanın tarixi:**

**Yoxlamanın səbəbi:**

**İndiki yoxlamanın tarixi:**

**Yoxlamanın nəticəsi barədə Komissiyanın rəyi və qiyməti:**

**Təhlükəsizlik texnikası üzrə qrupu:**

**Növbəti yoxlamanın tarixi:**

Rəis:

M.Y. "____" _________ 20__ il

"Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən elektrotexniki
heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin
peşə biliklərinin yoxlanılması Qaydaları"na
3 nömrəli Əlavə

_____ ilin _________ ayı ərzində ______ filialının Biliyin Yoxlanılması Komissiyası tərəfindən elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin peşə biliklərinin yoxlanılması barədə

**HESABAT**

| S/s | Adı, soyadı, atasının adı | Qurumun adı, ünvanı | Yoxlamanın səbəbi | Yoxlamanın tarixi | Komissiyanın rəyi |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| | | | | | |